**"Folklor yaradıcılığında Qərbi Azərbaycan izləri" rubrikasında qədim türk-oğuz yurdu, folkor yaradıcılığının, aşıq sənətinin tarixi beşiklərindən biri Göyçə mahalından, onun tarixi coğrafiyasından, inzibati bölgüsündən söhbət açacağıq.**

# Ermənistanın tarixdən silmək istədiyi Göyçə mahalının tarixi coğrafiyası...




Göyçə gölü ətrafında yerləşən tarixi Göyçə mahalı Qərbi Azərbaycanda 1988-ci ilə qədər azərbaycanlıların kompakt yaşadığı ərazilərdən biri olub. Tədqiqatçıların verdikləri bilgiyə görə, 1747-1828-ci illərdə İrəvan xanlığının mahalı olub. Mahal Göyçə gölünün sahilləri boyu geniş bir ərazini əhatə edir. Bu ərazi Rusiyaya müharibə ilə birləşdirilənə qədər İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti illərində Ermənistan SSR rayonlaşdırılarkən Göyçə mahalı süni surətdə beş inzibati rayon arasında bölünüb: Çəmbərək rayonu, Basarkeçər rayonu, Aşağı Qaranlıq rayonu, Kəvər rayonu və Yelenovka rayonu.

Geniş otlaqlara malik olan Göyçə mahalında yaşayan əhali daha çox əkinçilik, maldarlıq, arıçılıq, bağçılıq, xalçaçılıq və balıqçılıqla məşğul olmuşdur. Göyçə Azərbaycan aşıq sənətinin beşiklərindən biri hesab edilir. Bölgə Azərbaycan ədəbiyyat və mədəniyyət tarixinə Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Aşıq Əsəd, Aşıq Qurban kimi məşhur ustad saz və söz sənətkarlarını bəxş edib.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda Göyçə mahalı tarixi Azərbaycan torpağı kimi onun tərkibində olub. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min km?. olub. 1920-ci ildən AXC-ni işğal edən yeni rus bolşevik imperiyası Azərbaycanın ərazisi olan Zəngəzur mahalı, Göyçə mahalı, Şərur mahalı, Dərələyəz mahalı, Dilican ərazisini qanunsuz şəkildə Ermənistana verib.

Göyçə gölünün adı "Kitabi Dədə Qorqud"da çəkilir. Tədqiqatçılara görə, "Kitabi-Dədə Qorqud"da rast gəlinən yer-yurd adlarının izini Göyçə gölü boyunca hər tərəfdə tapmaq olar. Bu eposda Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin izidir. Göyçə mahalı cənubdan - Ağlağan təpəsi, Dəlik, Çənlibel dağları, Səlimgədiyi, şimalda isə Murğuz, Şahdağ silsiləsi ilə əhatə olunmuşdur. Şah dağından baxanda bu mahal ortasına ayna salınmış güllü bir nəlbəkini xatırladırdı. Göyçə mahalı çox qədim zamanlardan bəri el şairlərinin vətəni olmuşdur. Göyçə mahalında yaşayıb-yaratmış saz ustaları aşıq sənətinə yenilməzlik gətirmişlər. Buranın əhalisi şad günlərdə, qəmli anlarda qədim qopuzun varisi olan sazı kökləmiş və onun sədaları ilə ürək çırpıntısını, daxili sızıltısını ifadə etmişdir. Göyçənin elə bir guşəsi yoxdur ki, orada türk-oğuz izlərinə rast gəlinməsin. Toxluca kəndindəki Qanqalı dağı, Göyərçin kəndinin örüşündə Qara Quzeyadlı dağı, Zod aşırımında soyuq bulaq uzaq keçmişdən bu günə kimi oğuz türklərinin daş yaddaşı idi. Göyçə elinin şifahi xalq ədəbiyyatı nümunələrindəki mifoloji varlıqlar haqqında inancların kökü qədim dövrə gedərək tanrıçılıq, şamançılıq dünyagörüşünə söykənir. Əyə inancı insanlara sağlamlıq, səadət, bərəkət gətirən ocaq hamisi sayılırdı. Qaraçuxa isə tale, bəxt tanrısıdır. Bu tanrıların simvolları xalça sənətinə də keçmiş, onun naxış-kompozisiya həllində iştirak edib...Bu barədə internet resurslarında gedən məlumatlarda bəhs olunur.

Goyce.az saytında qeyd edilir ki, tarixlər boyu aborigen türk tayfalarının yaşadığı Göyçə mahalında VIII əsrin əvvəllərindən başlayaraq Qara dəniz bölgəsində yaşayan türk mənşəli kimmer, iskit, sak tayfalarının axını və məskunlaşması prosesi başlanıb. Türklərin bu etnik köç prosesi XI - XII əsrlərə qədər davam esib. Müxtəlif dövrlərdə bu bölgəyə türk tayfaları olan kimmer, sak, quqar, şirak, katak, peçeneq, oğuz tayfalarının gəlişi nəticəsində yerli türk əhalisinin demoqrafik və etnik mövqeyi güclənib. Orta əsrlər dövründə də bu bölgənin azərbaycan türklərinin tarixi vətəninin bir hissəsi olması haqqında qaynaqlarda təkzib olunmaz məlumatlar mövcuddur. "Oğuz türklərinin böyük tarixi və ədəbi ensiklopediyası olan "Kitabi Dədə Qorqud" dastanında Göyçə mahalı haqqında geniş məlumatlar verilmiş, bu bölgə Oğuz türklərinin vətəni kimi təsvir olunmuşdur. Bu bölgədə olan bir çox toponimlər dastanda verilən toponim və şəxs adları ilə eyniyyət təşkil edir. Göyçə mahalında ən qədim yaşayış məskənlərindən olan Babacan kəndinin toponim və antroponim( ad bildirən) üzrə yanaşmalarda tarixinə baxsaq bu ad "Kitabi Dədə Qorqud" dastanlarında Baybecan adı çəkilən oguz igidlərindən birinin adı ilə bağlı olduğunu görə bilərik. Eyni zamanda "Kitabi-Dədə Qorqud" dastanında Göyçə gölü çevrəsini əhatə edən Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin izidir. Göyçə mahalı ərazisi türk mənşəli Sacilərin, sonra Salari və Rəvvadilərin, Səlcuq İmperiyasının, Atabəylər, Hülaki, nəhayət XV əsrdə Qaraqoyunlu, sonralar Ağqoyunlu dövlətləri və Səfəvi dövlətinin tərkibində olub. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə Çuxursəd vilayətinin tərkibində olan Göyçə mahalı, Səfəvi dövləti dövründə 13 bəylərbəyilikdən biri olan Çuxursəd bəylərbəyiliyinin ərazi inzibati vahidlərindən biri olmuşdur. Qaraqoyunluların hakimiyyətinin ilk dövrlərində Çuxursəd vilayətini Sədlilər sülaləsi idarə edirdi. Lakin Qaraqoyunlu hökmdarı İsgəndərin dövründə Sədli tayfasının nümayəndələri idarəçilikdən uzaqlaşdırılmış və Çuxursədin idarəçiliyi birbaşa mərkəzi hakimiyyətə tabe edilmişdir. Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Çuxursəd bəylərbəyiliyini səfəvi şahlarının təyin etdikləri iki Azərbaycan türk tayfasının - ustaclı və rumlu tayfalarının nümayəndələri idarə edirdi. Çuxursəd bəylərbəyliyinin Həsən bəy Rumlunun "Əhsən-üt təvarix" əsərində 1538-ci ildə xatırlanan ilk bəylərbəyi Bədir xan Ustaclu olmuşdur. 1554-cü ildə Sultan Süleyman İrəvana hücum edərkən Hüseyn xan Rumlu Cuxursəd bəylərbəyi idi. Uzunmüddətli Səfəvi-Osmanlı müharibələri dövründə strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bu bölgə ciddi dağıntılara məruz qaldı. Nəhayət, 1590-cı il İstanbul sülh müqviləsinə görə, Cuxursəd bəylərbəyiliyinin ərazisi Osmanlı imperiyasının tabeliyinə keçdi 1590-cı ildə Osmanlılar tərəfindən tərtib olunmuş "Müfəssəl dəftər"ə görə Cuxursəd bəylərbəyliyinin ərazisi iki livaya - İrəvan və Naxçıvan livalarına bölünmüşdür. XVII əsrdə baş verən Səfəvi - Osmanlı müharibələri nəticəsində, 1635-1639-cu illərdə Cuxursəd bəylərbəyliyinin ərazisinin təqribən yarısı Osmanlı imperiyasının tabeliyinə keçdi". Saytda vurğulanır ki, XIV-XVI əsrlərdə ona məxsus ərazilərin yalnız İrəvan və Şərqi Şörəyel bəylərbəyliyin əlində qaldı (6, 8-9).XVII əsrin 30-cu illərindən XVIII əsrin 20-ci illərinə qədər olan dövrdə Cuxursəd bəylərbəyliyi İrəvan, Şərqi Şörəyel Naxçıvan və Maku əyalətlərini əhatə edirdi (5, 42).XVIII əsrin 20-ci illərində Səfəvi dövlətinin siyasi böhran dövründən istifadə edən Rusiya və Osmanlı imperiyaları Cənubi Qafqaza - Səfəvi dövlətinin şimal bölgələrinə hərbi müdaxiləyə başladılar. 1724-cü ildə bağlanan Rusiya-Osmanlı birgə müqaviləsinə görə, Səfəvi dövlətinin şimal bölgələri tərəflər arasında bölüşdürüldü. Bu müqavilədən sonra Azərbaycanın digər əraziləri ilə yanaşı, Cuxursəd bəylərbəyiliyinin əraziləri də müharibə meydanına çevrildi...

Qeyd edilir ki, XVIII əsrdə Azərbaycan Səfəvi dövlətinin süqutundan sonra bu bölgə Əfşarlar imperiyasının hüdudları daxilində Azərbaycan inzibati ərazisinin tərkibində olmuşdur. Nadir Şahın ölümündən sonra Göyçə mahalı çevrəsində İrəvan xanlığı yaranmışdır. Nadir Şah Əfşarın İrəvan xanlığı Çuxursəd bəylərbəyiliyi əsasında təşəkkül tapmışdı. Nadir Şah qətlə yetirildikdə İrəvan bəylərbəyi Pir Mahmud xan hakimiyyəti əldən verməməyə cəhd göstərmişdisə də, İrəvanda İran ağalığına qarşı üsyana başçılıq edən yerli feodal Mir Mehdi xan özünü xan elan edərək, müstəqil İrəvan xanlığının əsasını qoydu. Lakin İrəvan xanlığı keçmiş bəylərbəyiliyin bütün ərazisini əhatə edə bilmədi. Onun bir hissəsi Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi. "İrəvan xanlığı Azərbaycanın qərbində Göyçə gölü ətrafında yerləşmiş və 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Üzməli, Dəzəkənd-Parçenis, Səədli, Talın, Seyidli-Asaxlı, Sərdarabad, Qərbibasar, Abaran, Dərəçiçək və Göyçə. Xanlığın mərkəzi İrəvan şəhəri idi.Tarixşünaslıqda Göyçə adının etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Əksər alimlərin fikrincə bu ad hidronimdir və Göyçə gölünün adından götürülmüşdür. Göyçay sözünün tədricən dəyiçilərək Göyçə formasına düşməsi əsasında əmələ gəlmişdir. Gölün suyunun rəngi göy (təmiz, duru) olduğu üçün Göyçay adlandırılmışdır. Müxtəlif illərdə nəşr olunan "Kitabi-Dədə-Qorqud" dastanlarında Göyçə gölünün adı Göyçə dəniz, Gökcə dəniz, Gökçe dəniz formalarında qeyd edilmişdir. Orta əsr Azərbaycan tarixçisi İsgəndər bəy Münşi Türkmanın "Tarixe-aləmaraye-Abbasi" əsərində də Göyçə gölü haqqında olduqca maraqlı məlumatlar vardır. Bu əsərdə gölün adı Gökcə (Göycə) dənizi və ya Gökcə Təngiz kimi əks olunmuşdur. İsgəndər bəy Münşi öz əsərində Göycə dənizinin təbiəti haqqında yazır: "...Təbiətin paklıq və xürrəmilik vaxtı olan bahar günlərində əlhəzrət zillələh şah (I Şah Abbas-M) havasının lətafəti, suyunun bolluğu, gül-çiçəyinin çoxluğu, çay və bulaqlarının göz oxşaması ilə göz oxşayan və cənnət gülzarına bənzəyən Göycə dəniz yaylağında işrətlə məşğul olub ov edirdi" (9, 1204).Səfəvi dövrü Anonim müəllifi "Tarix-i aləmara-yi Səfəvi" əsərində də bu gölün adını "Göyçə dəryası" adlandıraraq yazır: "İsmayıl (Səfəvi-M) Ərdəbildən "Göyçə dəryası kənarına getmək, oradan isə Şərqi Anadoluya keçmək fikrində idi". Erməni və rus mənbələrində bu göl Göyçay (Sinaya-Voda), Sevank, Qeqam, Qeqarkuni fomasında qeyd edilir. Rus işğalından sonra məkrli siyasətini davam etdirən erəmənilər Göyçə gölünün adını dəyişdirib Sevank (Qarakilsə) qoymuşlar. Bu ərazidə qədim albanlar tərəfindən qara daşdan tikilmiş kilsə mövcuddur və Göyçə adının Sevank adlanadırılması da bununla əlaqədardır. Bu yolla ermənilər ərazinin tarixi adını saxtalaşdırmaq məqsədi güdmüşlər..."

Sayta görə, Göyçə mahalı İrəvan xanlığının şimal hissəsini əhatə etməklə, həm ərazisinə, həm də əhalisinin sayına görə xanlığın ən böyük mahalı hesab edilirdi. Bu mahal indiki Ermənistan Respublikası ərazisindəki Çəmbərək (Krasnoselo) rayonuna daxil olan Toxluca, Ağbulaq, Şorca, Ardanış, Cil kəndbrini, Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Kəvər (Kamo) rayonlarının ərazilərini əhatə edirdi...

"Azərbaycanın qədim və tarixi torpaqlarında yeni inzibati bölgü - "Erməni vilayəti" yaradıldı. Rus tarixçi-statistiki İ.Şopen tərəfindən 1828-ci ilin aprelindən 1832-ci ilin mayına qədər "Erməni vilayəti"ndə kameral siyahıyaalma həyata keçirilmişdir. Həmin siyahıyaalmanın nəticəsinə görə 2 mahalda (Dərəçiçək və Göyçə) ümumilikdə 179 kənd mövcud olmuşdur. Bunlardan 83-ü tamamilə dağıdılmış və viran edilmiş, 96-sı isə yaşayışüçün yararlı, qismən dağılmış kəndlər idi. XIX əsrin 30-cu illərinə doğru Göyçə mahalında dağıdılmamış 59 kənddən 36-sında, Dərəçiçək mahalının 37 kəndindən 20-sində yaşayış olmuşdur..."

Əlbəttə, Göyçə mahalı barədə çox geniş yazmaq olar. Bundan sonra da bu istiqamətdə yazılarımız olacaq. Sazlı-sözlü qədim Göyçəni hər birimiz yaxından tanımalıyıq, çünki gec-tez yolumuz oradır...

***İradə SARIYEVA***